Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Zelenski Stiv Uitkoff və Cared Kuşnerlə danışıqlar aparıb

indicə




Cared Kuşner (solda) və Stiv Uitkoff

Ukrayna Prezidenti **Volodimir Zelenski** iyulun 22-də ABŞ Prezidenti Donald Trampın xüsusi elçiləri **Stiv Uitkoff** və **Cared Kuşner**lə danışıqlar aparıb. Bu xəbəri ilk olaraq "Axios"un jurnalisti Barak Ravid məlumatlı mənbəyə istinadla yayıb. Sonradan Zelenski görüşün keçirildiyini təsdiqləyib.

Zelenskinin sözlərinə görə, tərəflər "diplomatiyanı necə canlandırmaq və sülhü necə yaxınlaşdırmaq" barədə vacib söhbət aparıblar. O əlavə edib ki, Ukrayna və ABŞ komandaları sıx əlaqə saxlayır və müzakirə olunan məsələlər üzərində işi davam etdirəcəklər.

Bu gün, iyulun 23-də isə ABŞ dövlət katibi **Marko Rubio** ilə Rusiyanın xarici işlər naziri **Sergey Lavrov** Manilada görüşəcək. Rubio Lavrovla Rusiyanın Ukraynaya qarşı apardığı müharibəni müzakirə etmək niyyətində olduğunu bildirib.

Bundan əvvəl Moskva Uitkoff və Kuşneri qəbul etməyə hazır olduğunu bəyan edib. Rusiyanın xarici işlər nazirinin müavini Sergey Ryabkov deyib ki, onların Rusiyaya mümkün səfəri gündəmdədir, amma konkret tarixlər hələ müəyyənləşməyib.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur